*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*




*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received :10.07.2023*
*Kabul tarihi |Accepted: 15.07.2023*
*Yayın tarihi |Published : 25.08.2023*



**Nailə Şirinova**

*https://orcid.org/0009-0002-5589-6521*
*Azerbaijan Technical University, Department of Humanities, associate professor, doctor, Azerbaijan, nailashirinova59@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Şirinova, N. (2023). Milli ve Manevi Değerlerimizin Korunması ve İstikrarının Sağlanmasında Hayder Aliyev'in Rolü. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı,* 10 (1), 341- 347.

# Milli ve Manevi Değerlerimizin Korunması ve İstikrarının Sağlanmasında Hayder Aliyev'in Rolü

***Xülasə***

*Millî kimliğin, millî şuurun, millî varlığın bir bütün olarak temeli millî-manevi değerlerdir. Dil, din, örf, ahlâk ve ahlak normları milli ve manevi değerlerin önündedir. Büyük lider Haydar Aliyev, Azerbaycan'daki siyasi liderliğinin her iki döneminde de faaliyetinin her aşamasında seçkin bir devlet adamı olarak milli ve manevi değerlerimize bağlılığın bir örneğiydi. Milli ve manevi değerlerimizin önemi ve gelişimi Milli Lider tarafından sürekli üzerinde durulmuş, bunların korunması ve istikrarının güçlendirilmesi ana öncelik olarak görülmüştür. Onun hikmeti ve öngörüsü milli kimliğimizin*

*korunmasında temel rol oynamış ve milli değerlerimizin gelecek nesillere aktarılması için sağlam bir temel oluşturmuştur.*

***Anahtar Kelimeler:*** *milli-manevi değerler, Haydar Aliyev, milli kimlik, din, dil, gelenekler, ahlaki-ahlaki normlar*

# Hayder Aliyev's Role in Ensuring the Protection and Stability of Our National and Spiritual Values

***Abstract***

*The basis of national identity, national self-consciousness, national existence as a whole is national-spiritual values. Language, religion, customs, moral and ethical norms are ahead of national and moral values. The great leader Heydar Aliyev was an example of loyalty to our national and moral values as an outstanding statesman at all stages of his activity, during both periods of his political leadership in Azerbaijan. The importance and development of our national and moral values was constantly focused on by the National Leader, and their protection and strengthening of stability was considered as the main priority. His wisdom and foresight played a fundamental role in protecting our national identity and created a sound basis for the transfer of our national values to future generations.*

***Keywords:*** *national-moral values, Heydar Aliyev, national identity, religion, language, traditions, moral-ethical norms*

## Giriş

Dəyər yönümləri olmayan, mənəvi-əxlaqi təməllərdən məhrum olan cəmiyyət deqradasiyaya və tənəzzülə məhkumdur. Müxtəlif tarixi dövrlərdə mənəvi dəyərlər dayanıqlı və səmərəli ictimai formasiyanın yaranması üçün dəstəkləyici amillər olmuşdur. Aydındır ki, mənəviyyatın inkişaf səviyyəsi ali prinsiplərin dəyər ölçüsü kimi başa düşülür: yaxşılıq, sevgi, həqiqət, həqiqət, gözəllik, həyat, insanlıq, rəğbət; Vətən, ailə, borc, qəhrəmanlıq kimi dəyərlərin prioriteti kimi onların yayılma miqyası və hər bir insanın inkişaf səviyyəsi ilə ölçülür. Bu başlanğıclar həyatımızın normalarına çevrilməlidir. İnsanların şüurunda mənəvi potensialı, mənəvi-əxlaqi dəyərləri inkişaf etdirmədən və möhkəmləndirmədən heç bir cəmiyyət öz perspektivini görə bilməz. Yalnız insan mənəvi dəyərlər sisteminin qurulması üçün dayaq nöqtəsi yaratmağa imkan verən sosial varlıq olaraq qalır. Milli-mənəvi dəyərlər insanların həyatında yenilənmə, mənalılıq və həddən artıq böyük təsirlər yaradan ən mühüm amillərdəndir. Onlar insanların milli kimliyinin, tarixinin və mədəniyyətinin əsasını təşkil edir. Milli mənəviyyat insanların bir-birilərinə, övladlarına, mülkiyyət münasibətlərinə, inam və etiqadlarına, dəyər yönümlərinə əsaslı təsir göstərir. Millətin mövcud olmasının özünəməxsusluğunu səciyyələndirən milli-mənəvi dəyərlərin yalnız zamanımız kontekstində qorunub saxlanılması ilə kifayətlənmək olmaz. Onun daimi yaşaması üçün dayanıqlığının

təmin edilməsi milli varlığımızın əbədiliyi strategiyasının zəruri şərtidir. Qeyd edilənlər kontekstində Ulu Öndər Hdeydər Əliyevin həm ideya siyasi, həm də praktiki-əməli fəaliyyəti ən yüksək dəyərə malikdir.

Ulu öndər Heydər Əliyev fəaliyyətinin bütün mərhələlərində, Azərbaycana siyasi rəhbərliyinin hər iki dövründə görkəmli dövlət xadimi kimi milli-mənəvi dəyərlərimizə sədaqət nümunəsi olmuşdur. Tariximizin, mədəniyyətimizin, inam və etiqadımızın əsas cəhətlərini özündə əks etdirən milli-mənəvi dəyərlərimizin yüksək səviyyəyə çatması və önəmi Ümummilli Lider tərəfindən daim diqqət mərkəzində saxlanılmış, onların qorunması və dayanıqlılığının təmin edilməsi əsas prioritet olaraq qəbul edilmişdi.

Aşağıdakı iqtibaslar da qeyd olunan fikrin əsalılığını sübut edir:

-YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yap.org az saytına müsahibəsində demişdir "Ulu Öndər Heydər Əliyev milli və dini dəyərlərimizin qorunmasında, İslam dininə ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin daha da möhkəmləndirilməsində, eləcə də ölkədə vicdan azadlığının bərqərar edilməsində, tolerant və multikultural ənənələrimizin təbliğində və təşviqində əməli fəaliyyəti ilə misilsiz rol oynayıb. "Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik",-deyən Ulu Öndər xalqda milli heysiyyəti gücləndirmək, habelə zəngin irsimizi, mədəniyyətimizi, incəsənətimizi, adət-ənənələrimizi yaşatmaq, ana dilimizi inkişaf etdirmək üçün çox mühüm tədbirlər həyata keçirib (https://scwra.gov.az/az/view/news/8807). Heydər Əliyev milli mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub-saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bildirirdi ki, bunlarsız millət yoxdur. Bunları qoruyub-saxlamış xalq isə daim müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir (https://elibrary.az/docs/jurnal/jrn2017_1048.pdf). Milli-mənəvi dəyərlərdən danışarkən ilk növbədə ana dilimiz yadımıza düşür. Biz daima ana dilimizin saflığı uğrunda mübarizə aparan böyük mütəfəkkirlərimizdən öyrənməliyik. Ana dili hər bir xalqın, millətin varlığını təyin edən ən mühüm atributlardan biridir. Ana dili sadəcə informasiya vasitəsi kimi başa düşülməməlidir. Azərbaycan dili xalqın qədim dövrlərdən balayaraq yaratdığı milli-mənəvi sərvətlərin daşıyıcısıdır. Azərbaycan xalqının dünyagörüşündə, elmi-intellektual və bədii təfəkküründə yaradılan nə varsa gələcək nəsillərə ana dili vasitəsilə ötürülür. Ona görə də xalqın mənəvi varlığı kimi ana dilini, Azərbaycan dilini sevmək, onun qayğısına qalmaq, dilin normalarına riayət etmək hər bir vətəndaşın borcudur.

Ana dilinin qorunması, tətbiqi və onun təkmilləşdirilməsi barədə Heydər Əliyevin fəaliyyəti xüsusi qeyd olunmalıdır. lider kimi xalqımızın milli-mənlik şüurunun oyanışında, milli-özünüdərk prosesinin yüksəlməsində, milli-kimliyimizə qayıdışımızda xidmətləri geniş və əhatəli idi. Sovetlər dönəmində-1969-cu ildə Azərbaycanda 1-ci şəxs olaraq Ulu öndərin indiki Bakı Dövlət Universitetinin 50 illik yubiley tədbirində Moskvanın tələblərinin ziddinə olaraq Azərbaycan dilində çıxış etməsi böyük bir rezonans doğurmuşdu. Daha sonra 1978-ci ildə qəbul edilən yeni Konstitutsiyamızda Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit olundu. Çünki Ulu öndər gözəl bilirdi ki, milli-azadlıq mübarizəsi də, müstəqilliyə və azadlığa doğru gedən yol da ana dilindən keçir.

Hakimiyyətdə olduğu müddət ərzində Heydər Əliyev Azərbaycan dilini milli mənliyin əsas məsələsi kimi daim ön plana çəkirdi. " H.Əliyev və Azərbaycan dili! Bu iki ad XX əsrin 60-cı iliərindən həmişə qoşa çəkilmişdir. Çünki Heydər Əliyev Azərbaycanda səlahiyyət sahibi olduğu andan - 1969-cu ildən bu günə kimi Azərbaycan dilinə təkcə adi ünsiyyət vasitəsi kimi deyil, onu həmçinin dövlət siyasətinə çevirmiş, bir an da olsa, diqqətdən yayındırmamışdır" (Quliyev, 2003).

1995ci ildə qəbul edilmiş Əsas Qanunumuzda Azərbaycan dili dövlət dili kimi yenidən təsdiqləndi. 2001-ci il iyunun 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzaladı. Fərmanda dilimizin tarixi inkişafı ərzində əldə etdiyi uğurlarla yanaşı, yaşadığımız dövrdə dövlət dili sayəsində yaranmış problemlər də geniş təhlil edilmiş və həmin problemlərin həlli yolları açıqlanmışdır. Dövlət dilinin tətbiqi işinin əməli şəkildə həyata keçirilməsini təmin etmək məqsədi ilə 30 sentyabr 2001-ci ildə Respublika Prezidentinin təsdiq etdiyi Azərbaycan Respublikasında Dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu qüvvəyə minmişdir. "Məlum olduğu kimi, 1 avqust Azərbaycan əlifbası və Azərbaycan dili günüdür. 2001-ci il avqustun 1-dən ölkəmizdə kiril qrafikasından latın qrafikasına keçilib. Bu tarix ümummilli lider Heydər Əliyevin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən hər il qeyd olunur" (http://www.milli.az/news/culture/98351.html).Bununla bərabər Azərbaycan Respublikasında Dövlət dili haqqında Azərbaycan Respublikasının qanununun tətbiq edilməsi barədə 2003-cü il yanvarın 2-də Azərbaycan Respublikasının Prezidentinin fərmanı verlimişdir. Ümummilli lider Heydər Əliyev Azərbaycanın yeni tarixində ilk dəfə olaraq Azərbaycan dilinin dünyanın ən nüfuzlu rəsmi məclislərində səslənməsinə nail olmuşdur. Ulu öndər milli-mənəvi dəyərlərimiz sırasında dini dəyərlərimizə də çox böyük önəm verirdi. Azərbaycanımıza siyasi

rəhbərliyinin ikinci dönəmində bu sahədə həm nəzəri, həm də praktiki istiqamətdə titanik işlər görülmüşdür.

Ulu öndər Heydər Əliyev İslam dininin mahiyyəti, onun mütərəqqi, qüdrətli bir din olduğu və Azərbaycan xalqının həyatında mühüm rol oynadığını həmişə vurğulamışdır. 1993-cü ildə Təzəpir məscidində dindarlarla görüşlərinin birində İslamın tərəqqipərvər və dünyəvi əhəmiyyətindən bəhs edən Ümummilli Lider demişdir: "Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu İslam dini özünün mütərəqqi olduğunu və eyni zamanda, İslam dininə itaət edən adamların hamısına özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara daimi xoşbəxtlik bəxş edir. Bizim dinimiz müsəlmanları həyatlarında rast gəldiyi çətinliklərdən xilas etməyə, düşmənlərə qarşı mübarizədə qalib gəlməyə və özlərini, öz ölkələrini, öz dinini, öz məsləkini qoruyub saxlamağa həmişə yardım etmişdir. Heç şübhə yoxdur ki, İslam dini indiyə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün İslam dininə itaət edən adamların hamısını xoşbəxtliyə, səadətə gətirib çıxaracaqdır'' (Azərbaycan qəzeti, 6 sentyabr 1993-cü il).

H.Əliyev Azərbaycanda 1993-cü ildə prezident seçildikdən sonra Səudiyyə Ərəbistanı Krallığına səfər edərək Ümrə ziyarətini yerinə yetirmiş və Mədinə şəhərində Peyğəmbər məscidinin şərəf kitabına aşağdakı sözləri yazmışdır: "Müqəddəs Mədinə şəhərini, İslamın müqəddəs abidələrini, Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsini, məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm. Allaha şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha islam mənbəyinin nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın Böyüklüyünü dərk etdim" (Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər, 2007). H. Əliyev İslam dini ilə bağlı beynəlxalq elmi tədbirlərin respublikamızda keçirilməsinin həmişə təşəbbüskarı olmuşdur. Onun təşəbbüsü ilə 1993-2002-ci illərdə İslam dini və islam mədəniyyəti ilə bağlı çoxlu tədbirlər keçirilmişdir. Azərbaycan İslam dünyasının bir parçası, Şərqlə Qərbin qovuşuğunda yerləşdiyinə və Qafqazda ən böyük İslam respublikası olduğuna görə bu beynəlxalq tədbirlərin Bakıda keçirilməsini təbii hesab etmək olar. Qeyd etmək lazımdır ki, ulu öndər "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun Bakıda keçirilməsi haqqında hələ 1998-ci ilin fevralında sərəncam imzalamışdır.

Qeyd edək ki, İslam dininin və islam sivilizasiyasının Qafqazda yayılması, onun ümumbəşəri dəyərləri zənginləşdirməsi ilə bağlı məsələlərin elmi cəhətdən araşdırılması zərurətini nəzərə alaraq ulu öndər bu aktual və vacib tədbirin Bakıda keçirilməsini

dəstəkləmişdir. Simpoziumda Türkiyə, Rusiya, ABŞ, Misir, Almaniya, Fransa, Küveyt və digər ölkələrdən gəlmiş nümayəndələr iştirak etmişlər. Tədbirdə Heydər Əliyev dərin məzmunlu nitq söyləmişdir. İslamın Qafqazda yayılmasının Qafqaz xalqlarının həyatındakı sosiomədəni əhəmiyyətini şərh edən ulu öndər bu haqda demişdir: "Azərbaycanda islam dini VII əsrdən yayılıb və Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir. Bizim çoxəsrlik islam dövrü tariximiz zəngindir. Bu gün iftixar hissi ilə deyirik ki, Azərbaycan islam mədəniyyəti, islam dini ilə bağlı olan dahi insanları – Nizami, Füzuli, Nəsimi, Tusi, Qətran Təbrizi və bir çox digər böyük şəxsiyyətləri dünya sivilizasiyasına böyük töhfələr vermiş və islam mədəniyyətini zənginləşdirmişdir. Biz bunlarla fəxr edirik. Biz Azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik" (Azərbaycan qəzeti, 10 dekabr 1998-ci il).

Milli-mənəvi dəyərlərimizin üçüncü bir amili əxlaqi və etik normalardır. Azərbaycan cəmiyyəti üçün əsas olan əxlaqi və etik normalar azərbaycanlı milli şüurunun tarixən formalaşmış tərkib hissəsindən ibarətdir. Hər bir xalqın əxlaqi və etik normalarında özünəməxsus millilik ruhu vardır. Azərbaycan xalqına məxsus əxlaqi-etik keyfiyyətlərin milliliyi ailə və cəmiyyətə münasibətdə formalaşmışdır. Azərbaycanlı ailələr üçün səciyyəvi olan əxlaqi və etik normaların ən mühümü budur ki, burada ailə başçısının mövqeyi vacib sayılır. Bu mövqe məcburi qəbul edilmir, ictimai psixologiyada ənənəviliyə əsaslanır. Qeyd etmək lazımdır ki, müasir dövrdə demokratik prinsiplərin inkişafı ilə bağlı azərbaycanlı ailəsində daxili problemlər təkcə ailə başçısı tərəfindən təkbaşına həll edilmir. Ailə daxili problemlər kişi və qadın tərəfindən məsləhət olunmuş şəkildə həll edilir.

Bu məsələ ilə əlaqədar Heydər Əliyev bildirir ki, hər xalqın öz mentaliteti, əxlaqi qaydaları vardır. Bizdə nə qədər gözəl əxlaqi qaydalar var. İndi onları nəyəsə başqa şeylərə qurban vermək olmaz. Məsələn, bizim xalqımızda əsrlərdən bəri formalaşmış, gəlmiş adətlər vardır: kiçiyin böyüyə hörməti, böyüyün kiçiyə qayğısı, övladın valideynlərinə hədsiz hörməti, valideynlərin öz övladlarına olan qayğısı və məhəbbəti. Bu, bizim xalqımızın mentalitetidir və biz bununla fəxr etməliyik. Milli-mənəvi dəyərlərimizin əsaslarından biri də adət və ənənələrimizdir. Ulu öndər həmişə qeyd edirdi ki, Azərbaycan xalqı əsrlər boyu əziyyət çəkməsinə, yadelli işğalçılara qarşı mübarizə aparmasına baxmayaraq öz ənənələrini qorumağı bacarmışdır.

Azərbaycan xalqının qədim mədəniyyətinə məxsus adət-ənənələrin əksəriyyəti keçmiş dövrlərdən bu günümüzə gəlib çatmışdır. Bəzi adətlər isə unudulsa da, onların əvəzinə başqa

adətlər meydana gələrək ənənə şəklinə düşmüşdür. Buna misal olaraq Azərbaycan xalqı üçün səciyyəvi olan adət-ənənələrin timsalında qonaqpərvərlik, dostluq, qohumluq, müəyyən ailə mərasimlərinin davam etdirilməsi, bayramlarla bağlı mərasimlərin keçirilməsi və s. bu gün də yaşayır və məişətdə özünə geniş yer tapmışdır. Milli-mənəvi dəyərlərin formalaşmasında əsas aspektlərdən biri də ümumbəşəri dəyərlərə olan münasibətdir. Müasir dövrdə milli-mənəvi dəyərlərin inkişafını bəşəri dəyərlərdən kənarda təsəvvür etmək qeyri-mümkündür. Ona görə də Heydər Əliyev mənəvi tərbiyə sistemində milli və ümumbəşəri dəyərlərdən düzgün istifadə olunması, milli mədəniyyətin inkişafında ümumbəşəri dəyərlərdən faydalanmaq məsələsinə böyük diqqət yetirilirdi. Milli-mənəvi dəyərlər–milliliyi özündə qoruyaraq məzmununu bəşəri dəyərlərlə zənginləşdirdikdə onun dayanıqlığı daha sabit və perspekttivli olar.

**Nəticə**

Beləliklə, Heydər Əliyevin böyük lideri olaraq milli-mənəvi dəyərlərimizin qorunması və dayanıqlılığının təmin edilməsinə dəyərli töhfələr vermişdir. Onun Müdrikliyi və milli-mənəvi dəyərlərə sədaqəti, Azərbaycanın milli kimliyinin qorunmasında və dayanıqlılığının güclənməsində əsaslı rol oynamış və milli dəyərlərimizin gələcək nəsllərə daşıması üçün sağlam bir zəmin yaratmışdır. Bu gün aydındır ki, mənəvi dəyərlər fəlsəfəsi özünü inkişaf etdirən bir sistem kimi sosial həyatın bütün sahələrinə güclü təsir göstərməyə qadirdir. Bu sistem zəruri və zamanla davam edən canlı əlaqədir, onun vasitəsilə şəxsiyyətlərarası ünsiyyət və şəxsiyyətdaxili refleksiya həyata keçirilir.

**Ədəbiyyat**

Quliyev, V. (2003). *Heydər Əliyevin dil siyasəti.* Nurlan.

*Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər.* (2007). Əbilov, Zeynalov və oğulları NPE.

H. Əliyevin İslam sivilizasiyası Qafqazda mövzusunda beynəlxalq simpoziumda nitqi. (1998, 10 dekabr). *Azərbaycan qəzeti.*

http://www.milli.az/news/culture/98351.html

https://scwra.gov.az/az/view/news/8807/

https://elibrary.az/docs/jurnal/jrn2017_1048.pdf

(1993, 6 sentyabr). *Azərbaycan qəzeti.*